TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri

_____________ E.M.Ağayev

24 oktyabr 2023-cü il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**PROPOLİS TİNKTURASI** tinktura
PROPOLIS TINCTURE

**Beynəlxalq patentləşdirilməmiş adı**: Propolis tincture

**Tərkibi**
*Təsiredici maddə*: 1 flakonun içərisində 25 ml propolis tinkturası (propolisi tinctura) (1:10) (ekstragent – 80 %-li etanol) vardır.
*Köməkçi maddələr*: ekstragentdən əlavə köməkçi maddə mövcud deyil.

**Təsviri**
Sarımtıl-qonur rəngdən qırmızı-qonura qədər rəngli, spesifik qoxuya malik mayedir. Preparatın saxlanılması müddətində çöküntünün əmələ gəlməsi mümkündür.

**Farmakoterapevtik qrupu**
Yaraların və xoralı zədələnmələrin müalicəsi üçün istifadə olunan preparatlar. Yaraların sağalmasına səbəb olan preparatlar.
**ATC kodu**: D03AX.

**Farmakoloji xüsusiyyətləri**
***Farmakodinamikası***
Propolis (arı yapışqanı) – arıların həyat fəaliyyətinin məhsuludur, tərkibində bir sıra biogen maddələr – efir yağları, qətran qarışıqları, mum, flavonoidlər, flavonlar, darçın turşusunun törəmələri vardır. Mikrob əleyhinə və iltihab əleyhinə aktivlik nümayiş etdirir, regenerasiya (zədələnmiş toxumaların bərpa olunması) proseslərini sürətləndirir.
***Farmakokinetikası***
Öyrənilməmişdir.

**İstifadəsinə göstərişlər**
Mikrotravmalar, dəri və selikli qişalar üzərində səthi zədələnmələr, otit, faringit, tonzillit, haymorit, parodontit.

**Əks göstərişlər**
Propolisə qarşı yüksək həssaslıq və ya fərdi dözümsüzlük, xüsusilə, qaraciyər və ya böyrək xəstəlikləri qeyd olunan pasiyentlərdə, ekzema, allergik reaksiyalar (xüsusilə, arıçılıq məhsullarına qarşı reaksiyalar), dərinin və selikli qişaların zədələnmiş sahələrindən qanaxma.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Preparatın istifadəsinə başlamazdan əvvəl həkimlə məsləhətləşmək lazımdır.

Preparatın istifadəsi müddətində ağırlaşmaların meydana çıxması ehtimal edilir və bu səbəbdən, pasiyentlər ağırlaşmaların inkişaf etməsi barədə məlumatlandırılmalıdırlar. Propolisə qarşı dözümsüzlük simptomları preparatın istifadəsindən dərhal sonra və ya bir neçə saat və hətta bir neçə sutka sonra meydana çıxa bilər. Bəzi pasiyentlərdə onlar yalnız təkrar müalicə kursu müddətində inkişaf edir.

*Pediatriyada istifadəsi*

Preparat 3 yaşdan yuxarı uşaqlarda istifadə edilə bilər.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**

Preparatın digər antiseptik preparatlarla və ya arıçılıq məhsulları ilə eyni zamanda istifadəsi tövsiyə olunmur. Hər hansı digər dərman preparatları ilə eyni zamanda istifadəsi üçün zərurət yarandığı halda, həkimlə məsləhətləşmək lazımdır.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**

Hamiləlik və ya laktasiya dövründə göstərilən dərman preparatının istifadəsi tövsiyə olunmur.

**Nəqliyyat vasitəsini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**

Heç bir təsir göstərmir.

**İstifadə qaydası və dozası**

Propolis tinkturası böyüklərdə və 3 yaşdan yuxarı uşaqlarda applikasiyalar şəklində, yaxalayıcı və yuyucu məhlullar şəklində və eləcə də, inhalyasiyalar şəklində yerli istifadə üçün nəzərdə tutulmuşdur.

*Mikrotravmalar və dərinin irinli zədələnmələri* qeyd olunduğu hallarda, propolis tinkturası sutkada 1-3 dəfə zədələnmiş nahiyəyə tampon vasitəsi ilə çəkilə bilər.

*Xarici irinli otitin* müalicəsi müddətində xarici qulaq yuyulduqdan sonra qulağa propolis tinkturası ilə isladılmış tampon (sutkada 2-3 dəfə 1-2 dəqiqəlik) yeridilməlidir və ya sutkada 3-4 dəfə 1-2 damcı propolis tinkturası damızdırılmalıdır.

*Xroniki tonzillit və faringit* zamanı selikli qişalara preparat 8-15 gün müddətində sutkada 1-2 dəfə çəkilməlidir. Bundan əlavə, tonzillit zamanı propolis tinkturası 1:20-yə nisbətində spirtli-sulu inhalyasion məhlulun hazırlanması üçün istifadə edilə bilər. İnhalyasiya sutkada 1-2 dəfə həyata keçirilməlidir, müalicə kursu 7-10 gün davam etdirilməlidir.

*Xroniki haymorit* zamanı haymor boşluqları 2 həftə müddətində sutkada 2 dəfə propolis tinkturasından və 0,9%-li natrium xlorid məhlulundan (1:10-na nisbətində) hazırlanmış məhlul ilə yuyulmalıdır.

*Parodontoz zamanı* propolis tinkturası turundalarda 5 dəqiqə müddətində parodontal ciblərə yeridilməlidir.

Səthi eroziyalar və ağız boşluğu selikli qişasının zədələnmələri zamanı 15 ml propolis tinkturası 1/2 stəkan ılıq suda həll edilərək hazırlanmış yaxalayıcı məhlul şəklində 3-4 gün müddətində sutkada 4-5 dəfə istifadə edilməlidir. Müalicə kursunun davametmə müddəti həkim tərəfindən fərdi qaydada müəyyən edilir.

**Əlavə təsirləri**

Adətən istifadə edilən terapevtik dozalarda preparat toksik deyildir və pasiyentlər tərəfindən yaxşı keçirilir. Əlavə reaksiyalar nadir hallarda inkişaf edir.

*Ehtimal edilən əlavə reaksiyalara aşağıda göstərilənlər aiddir:*

*Dəridə və dərialtı toxumalarda baş verən pozğunluqlar*: övrə, dəri üzərində yerli qaşınma, yerli ödem, dərinin qızarması, suluqların əmələ gəlməsi, vezikulyar səpgilər, dəridə, xüsusilə, əllərin üzərində və preparatla kontaktda olan bədənin digər nahiyələrində quruluq və çatların əmələ gəlməsi.

*Mərkəzi sinir sistemində baş verən pozğunluqlar*: başgicəllənmə.

*İmmun sistemdə baş verən pozğunluqlar*: allergik reaksiyalar, o cümlədən, allergik dermatit, hiperemiya, dəri üzərində qaşınma, səpgilər, larinqospazm, təngnəfəslik, Kvinke ödemi, bədən temperaturunun yüksəlməsi.

*Mədə-bağırsaq traktında baş verən pozğunluqlar*: ürəkbulanma.
*Tənəffüs sistemi orqanlarında baş verən pozğunluqlar*: təngnəfəslik.
Dil üzərində yanğı hissi, ağızda quruluq şəklində meydana çıxan yerli reaksiyalar inkişaf edə bilər.
İstənilən arzuolunmayan reaksiyalar meydana çıxdığı halda, preparatın istifadəsi dayandırılmalıdır və mütləq həkimə müraciət edilməlidir.
*Arzuolunmayan reaksiyalar barədə məlumatlar*
Hər hansı əlavə reaksiyalar, o cümlədən həmin içlik vərəqədə qeyd edilməyən istənilən əlavə reaksiyalar meydana çıxarsa, bu barədə həkimə və ya əczaçıya məlumat vermək lazımdır.
Dərman preparatlarının istifadəsi müddətində meydana çıxan arzuolunmayan reaksiyalar barədə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinə aşağıda göstərilən ünvana məlumat verilməlidir:
AZ 1065, Azərbaycan Respublikası, Bakı şəh., C. Cabbarlı küç., 34.
Faks: (+99412) 596-07-16.
Email: adr@pharma.az.
Telefon: (+99412) 596-05-20.
Qaynar xətt: (+99412) 596-07-12.
Arzuolunmayan reaksiyalar barədə məlumat verməklə, göstərilən dərman preparatının təhlükəsizliyi barədə daha çox məlumatın toplanmasına kömək etmək olar.

**Doza həddinin aşılması**
*Simptomları*: iştahanın itməsi, orqanizmin ümumi tonusunun zəifləməsi, əzginlik, dəri üzərində səpgilərin meydana çıxması.
*Müalicəsi*: antihistamin dərman preparatları ilə müalicə təyin edilməlidir.

**Buraxılış forması**
25 ml tinktura, damcısalan-flakonda.

**Saxlanma şəraiti**
25° C-dən yuxarı olmayan temperaturda, orijinal qablaşmada və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
3 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı/Qeydiyyat vəsiqəsinin sahibi**
“Ternofarm” MMC.
Ukrayna, 46010, Ternopol şəh., Fabriçnaya küç., 4.
Tel.:/Faks: +38 (0352) 521-444.
www.ternopharm.com.ua